# Canlı, yoxsa virtual ünsiyyət...

Ünsiyyət bir insanın duyğusunu, düşüncəsini, hər hansı bir xəbəri və ya məlumatı müxtəlif yollardan istifadə edərək qarşı tərəfə ötürməsidir. Müxtəlif yollar dedikdə bunu üzbəüz və ya telefonla danışmaqla da, səs atmaqla da,



məktub, "e-mail" yazmaqla da edə bilərik. Hətta səssiz qalaraq, mimikalardan istifadə edərək də qarşı tərəflə ünsiyyət qurmaq olar. Başqa bir ifadə ilə desək, ünsiyyət ortaq məxrəcdə görüşə bilmək sənətidir. Biz qarşı tərəflə bir-birimizi tam başa düşə bilmiriksə, həqiqi ünsiyyət qurmuş olmuruq. Qarşı tərəfi başa düşmək dedikdə təkcə onun nə danışdıqlarını deyil, həm də onun nə hiss etdiklərini anlamaq lazımdır.

Ünsiyyət qurmağı bacarmaq ilk növbədə yaxşı dinləməyi bacarmaqdan ibarətdir. Dinləməsəniz, başa düşməzsiniz, başa düşmədikdə isə ünsiyyət qura bilməzsiniz. Günümüzdə də problemlərin bir çoxu buradan qaynaqlanır. Biz qarşı tərəfi dinləyirmiş kimi görünürük, amma əslində danışmaq üçün öz növbəmizi gözləyirik və yaxud da özümüzü dinləyirmişik kimi aparıb hər hansısa bir işlə məşğul oluruq. Məsələn telefonla oynamaq kimi...

**Telefonun ünsiyyətə mənfi təsirləri**

Telefon asılılığı üzbəüz ünsiyyəti azaldır. İnsanlar real münasibətlər əvəzinə virtual əlaqələrə üstünlük verdikdə empati qurmaq, duyğuları paylaşmaq və sağlam münasibətlər formalaşdırmaq çətinləşir. Bu isə tədricən sosial təcrid və yalnızlıq hissini gücləndirir.

Psixoloji baxımdan telefonla həddindən artıq məşğul olmaq asılılıq mexanizmi yaradır. Beyin hər yeni bildirişdə və ya məzmunda dopamin ifraz edir və bu, insanı telefonu daha tez-tez yoxlamağa sövq edir. Nəticədə özünü idarəetmə zəifləyir və gündəlik həyat fəaliyyətləri arxa plana keçir.

Ünsiyyət prosesində insanlar arasında fikir, bilik, rəy, təcrübə və hisslər mübadiləsi gedir, onlar bir-birinin inam və əqidəsinə təsir edir, etibarlarını qazanır, öz bilik və təsəvvürlərini başqalarına aşılayırlar. Aydındır ki, ünsiyyət həyat tələbatlarından doğur və demək olar ki, insanın ictimai həyatının gedişini tənzim edir. Təsadüfi deyildir ki, tədqiqatçılar ünsiyyəti insanların bir-birini anlaması, başa düşməsi, fikirlərin təəssüratların başqalarına verilməsi prosesi , insanların başqalarına olan tələbatı prosesi kimi hesab etmişlər.

Həyati faktlar göstərir ki, ünsiyyət eyni zamanda psixi proseslərin təzahüründə özünəməxsus tərzdə iştirak edir. Ünsiyyət eyni zamanda şəxsiyyətin formalaşmasına da müəyyən tərzdə istiqamət verir.

Planetimizi bürümüş mövcud pandemiya şəraitində insanların ünsiyyətində bu gün müəyyən məsafələr yaranıb və yuxarıda qeyd edilən məqamların aşılanmasında müəyyən problemlər ortaya çıxıb.

Virtual ünsiyyətin zərərli tərəfləri onun xeyirli tərəflərindən daha çoxdur. Ümumiyyətlə, canlı ünsiyyətə olan tələbat insanın ən əsas tələbatlarından biridir və insanın bir şəxsiyyət kimi formalaşmasında onun rolu əvəzsizdir. Bu insanı həm intellektual, həm də emosional cəhətdən fəallaşdıran, zahiri maskalardan, səthi oyunlardan uzaq olan ünsiyyətdir.

Bu gün virtual ünsiyyət xüsusən gənclərdə bu meyarlara cavab vermir. Virtual ünsiyyət insanlarda internet asılılığı yaradır, onun psixoloji durumuna, sağlamlığına, cəmiyyətdə sosiallaşmasına öz mənfi təsirini göstərir. Rəqəmsal ünsiyyətdə insanlar öz sevinclərini, kədərlərini bir sözlə hiss və həyəcanlarını bildirə bilmirlər. Bütün bu məqamlar isə insanların bir-birlərinə soyuqlaşması prosesini yaradır və sürətləndirir. Bu gün biz müəyyən edilmiş qadağalara görə öz fəaliyyətimizi reallaşdırmaq üçün daha çox virtual ünsiyyətə üstünlük veririk. Ünsiyyətin canlı forması insanları doğmalaşdırır, birgəliyə, sevgiyə səmimiyyətə doğru aparır. Virtual həyatdan fərqli olaraq real həyatda insanlar özlərini xoşməramlı və səmimi aparmağı unutmamalıdırlar. Çünki real həyat insanın simasını daha aydın göstərməyə qadirdir.

**İlahə EYVAZLI.**

# Kriminalist, hüquqşünas-alim, müəllim

(Əvvəli 6-cı səhifədə).

savadlı və peşəkar kadrlar yetişmişdir. Onun tələbələri ən mürəkkəb və rezonans doğuran cinayət işlərinin açılmasında iştirak etmiş, ədalətin bərqərar olunmasına töhfə vermişlər. O, yalnız nəzəri bilik ötürən müəllim deyil, həm də praktiki bacarıqlar aşılayan, tələbələrini məsuliyyətli və vicdanlı hüquqşünas kimi formalaşdıran ziyalı idi.

**Kriminalistika laboratoriyası haqqında**

BDU-nun hüquq fakültəsində kriminalistika fənninin tədrisi ilə paralel olaraq Kriminalistika və məhkəmə ekspertizası kafedrasının nəzdində fəaliyyət göstərən Kriminalistika laboratoriyası xüsusi əhəmiyyət kəsb etmişdir. Laboratoriyada trasoloji izlərin (əl, ayaq, nəqliyyat vasitələri, sındırma alətləri və s.) aşkar edilməsi və götürülməsi, daktiloskopik qeydiyyat, istintaq zamanı kriminalistik fotoqrafiyanın tətbiqi, məhkəmə ekspertizasının təyin edilməsi və aparılması kimi məsələlər öyrədilir.

Burada tələbələr sübutların yaranma qanunauyğunluqları, onların aşkar edilməsi, qablaşdırılması, saxlanılması, tədqiqi və qiymətləndirilməsi üzrə praktiki biliklər əldə edirlər. Laboratoriyanın əsas məqsədi nəzəri biliklərin təcrübə ilə möhkəmləndirilməsidir. Rasim müəllim bu sistemin inkişafında, onun tədris və elmi əsaslarla qurulmasında mühüm rol oynamışdır.

Rasim Mirzəyev çox çətin və məsuliyyətli, eləcə də həyat üçün vacib və qiymətli bir sahənin alimi olmuşdur. Xalqımızın ona böyük ehtiyacı olmasına baxmayaraq, ölüm onun dünyasını dəyişməsinə bais oldu. Nə qədər arzular yarımçıq qaldı. Fəqət Rasim Mirzəyev ziyalıların, tələbələrinin və xalqın; onu tanıyanların yaddaşında əsl alim, peşəsinin vurğunu və gözəl insan kimi yaşayacaqdır.

L.Bornl demiş ki, "Alim bank xəzinədarına oxşayır; onun əlində böyük xəzinələrin açarı var, amma bu xəzinələr onun deyil".

**BİBİXANIM.**

# Uşaqları zərərli vərdişlərdən qoruyaq

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində olan Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin və Qəbələ



Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə 16 aprel 2026-cı il tarixində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Uşaqların zərərli vərdişlərdən qorunmasında ailənin rolu" mövzusunda maarifləndirici görüş keçirilib.

Görüşdə Mərkəzin direktoru Nərmin Cabbarlı, sosial iş üzrə mütəxəssislər Günel Ağayeva və Gülər Cabbarova, Qəbələ Rayon İcra Hakimiyyətinin Uşaq Hüquqlarının Müdafiəsi üzrə Komissiyasının psixoloqu Mələkxanım Ədilova, ekspert qrupunun üzvü Qəbələ Rayon Polis Şöbəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili Qrupunun inspektoru Şəmsiyyə Nadirli, valideynlər, müəllimlər və tələbələr iştirak ediblər.

Çıxışlarda valideynlik bacarıqlarının əhəmiyyəti, uşaqların düzgün tərbiyə olunması, onların psixoloji və emosional inkişafının dəstəklənməsi, ailə daxilində sağlam ünsiyyətin qurulması və müasir dövrün tələblərinə uyğun tərbiyə üsulları barədə geniş məlumat..verilib.

Sonda valideynləri maraqlandıran suallar ətraflı şəkildə cavablandırılıb və mövzu ilə əlaqəli maarifləndirmə materialları paylanılıb.

**Günel AĞAYEVA,**
**Nərmin CABBARLI,**
**Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi.**

# Şagirdin zəhməti, məktəbin uğuru



Qəbələ şəhər 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Rəhimli Aylin çalışqanlığı, savadı və yüksək nəticələri ilə seçilən nümunəvi şagirdlərimizdən biridir. O, təhsil aldığı müddətdə dərslərə böyük məsuliyyətlə yanaşmış, müəllimlərin rəğbətini qazanmışdır.

Aylin müxtəlif olimpiadalarda iştirak edərək yüksək nəticələr əldə etmiş, məktəbimizin adını daim ucaltmışdır. Onun qazandığı uğurlar həm məktəb kollektivi üçün, həm də ailəsi üçün böyük qürur mənbəyidir.

Təkcə biliyi ilə deyil, tərbiyəsi mədəni davranışı və fəallığı ilə seçilən Aylin yaşıdlarına örnək bir gəncdir. O, gələcəkdə də böyük nailiyyətlər qazanacağına inandığımız istedadlı şagirdlərimizdəndir.

XI siniflərin buraxılış imtahanında 300 mümkün baldan 298 bal toplayaraq rayon üzrə ən yüksək nəticə qazanan Aylin hamımızın inancını bir daha doğrultdu.

Biz inanırıq ki, Aylin gələcək həyatında da uğurlarını davam etdirəcək, ölkəmizə layiqli vətəndaş olacaqdır. Ona bundan sonrakı həyat yolunda yeni-yeni naliyyətlər, müvəffəqiyyətlər arzu edirik.

# IX sinif şagirdlərinin buraxılış imtahanı



12 aprel 2026-cı il tarixində Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən Qəbələ rayon Ümumtəhsil pilləsində təhsil alan IX sinif şagirdlərinin Qəbələ şəhər 1, 2, 3, 4, 5 №-li, Zarağan kənd 1 №-li tam orta məktəblərində buraxılış imtahanı keçirilmişdir. İmtahanda 1590 nəfər IX sinif şagirdi iştirak etmişdir.

# Həyat dolu ömür yolu

Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Yusif Səmədoğlunun 90 illik yubileyi ilə əlaqədar "Həyat dolu ömür yolu" adlı tədbir keçirilib.

Tədbirdə çıxış edənlər vurğulayıb ki, Yusif Səmədoğlu ziyalı nəslin nümayəndəsi, Azərbaycan vətəndaşı kimi ədəbiyyat tarixində mühüm iz qoyub. XX əsr Azərbaycan nəsrinin yetirdiyi nadir istedada malik böyük sima olaraq, yaradıcılığında yüksək bədiilik, vətənpərvərlik nümunəsi olan dərin ictimai-mənəvi məzmunlu əsərləri ilə oxucunu düşünməyə, məntiqi fikir mübadiləsi aparmağa sövq edib.

Yusif Səmədoğlu qələmi xalqı, xalqın tarixini, mədəniyyətini, milli ruhu, soykökə bağlı bütün məsələləri özündə əks etdirdiyi üçün oxunaqlığı ilə hər zaman aktualdır.

Tədbir çərçivəsində böyük qələm sahibinin həyat və fəaliyyətini əks etdirən video material nümayiş olunub.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ səsi"nin ştatdankənar müxbiri.**